**AZƏRBAYCAN RESPUBLİKASI**
**İCBARİ TİBBİ SIĞORTA ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN**

**İDARƏ HEYƏTİNİN QƏRARI**

**№___________**

**Bakı şəhəri** **“_____” _____________20____**

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 2023-cü il 30 noyabr tarixli 34 nömrəli Qərarı ilə təsdiq edilmiş “İcbari tibbi sığorta fondunun vəsaiti hesabına tibbi xidmətlərin göstərilməsi üçün göndəriş vərəqələrinin verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycanda yüksək ixtisaslı tibbi kadrların hazırlanması dövlətin və cəmiyyətin prioritet istiqamətlərindən biridir. Bu proses həm keyfiyyətli tibbi xidmətlərin göstərilməsi, həm də tibb sahəsində elmi nailiyyətlərin artırılması baxımından böyük əhəmiyyət daşıyır. Tibbi xidmətlərin maliyyələşdirilməsi mexanizmlərində tibb təhsilinin stimullaşdırılması, tələbələrin bilik və bacarıqlarının artırılması kimi amillərin nəzərə alınması önəmlidir. Tibb tədris müəssisələri tələbələrinin praktiki biliklərə yiyələnməsi üçün pasiyentlə birbaşa təmasda olmaları, müxtəlif xəstəlikləri təcrübədə müşahidə etmələri və bu yolla peşəkar bacarıqlarını inkişaf etdirmələri zəruri şərtlərdəndir.

Bu baxımdan tələbələrin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 489 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası”nın 3.6-cı və 3.7-ci bəndləri nəzərə alınmaqla, eyni zamanda Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən tədris və istehsalat təcrübəsinin aparılması üçün təcrübə bazası kimi müəyyən edilmiş və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə tibbi xidmətlərin göstərilməsi haqqında müqavilə bağlamış tibb müəssisələrində göstərilən stasionar tibbi xidmətlər üzrə tələbələrin praktiki bilik və bacarıqlarının artırılmasına müvafiq imkanların yaradılması məqsədilə həmin tibb müəssisələrinə sığortaolunanların birbaşa müraciəti məsələsinin tənzimlənməsi zərurəti yaranmışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, tələbələrinin praktiki bilik və bacarıqlarının artırılması və nəticədə yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına şərait yaradılması, habelə ümumi tibb təhsilinin inkişafına töhfə vermək məqsədilə Azərbaycan Respublikası

Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"nin 4.5.21-ci yarımbəndini rəhbər tutaraq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti

**Qərara alır:**

1. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 2023-cü il 30 noyabr tarixli 34 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari tibbi sığorta fondunun vəsaiti hesabına tibbi xidmətlərin göstərilməsi üçün göndəriş vərəqələrinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 3.8-ci bənd əlavə edilsin:

"3.8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nin şərtləri nəzərə alınmaqla bu Qaydanın 3.1–3.7-ci bəndlərində göstərilmiş göndəriş tələb olunmadan pasiyentin icbari tibbi sığorta fondunun vəsaiti hesabına Səhiyyə Nazirliyi tərəfindən tədris və istehsalat təcrübəsinin aparılması üçün təcrübə bazası kimi müəyyən edilmiş və Agentliklə tibbi xidmətlərin göstərilməsi haqqında müqavilə bağlamış tibb müəssisələrində (ATU tədris-terapevtik klinikası, ATU tədris-cərrahiyə klinikası, "Bakı Sağlamlıq Mərkəzi" publik hüquqi şəxs) stasionar tibbi xidmətlərdən istifadə etmək hüququ vardır.";

1.2. aşağıdakı məzmunda 5.3-cü bənd əlavə edilsin:

"5.3. Tibbi xidmətlər bu Qaydanın 3.8-ci bəndində nəzərdə tutulmuş qaydada göstərildiyi halda tibbi-iqtisadi ekspertiza zamanı göndəriş tələb olunmur.";

1.3. 4.6-cı bəndin birinci cümləsində ikinci halda mötərizədən sonra ""e-Tabib" elektron informasiya sistemində göndərişlər modulu üzərində elektron sorğu göndərir" sözləri əlavə edilsin.

2. Bu Qərarın Agentliyin e-qərar elektron informasiya sisteminə daxil edilməsi Hüquq departamentinə (Aysel İbayeva), həmin qərarın elektron informasiya sistemi vasitəsilə struktur bölmələrə və tibb müəssisələrinin rəhbərlərinin bu Qərarla tanış edilməsi üçün "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsə məlumat göndərilməsinin təmin edilməsi isə Vətəndaş müraciətləri və sənədlərlə iş departamentinə (Ehtiram Mikayılov) tapşırılsın.

3. Strateji inkişaf və iqtisadi təhlil departamentinə (Ramil Muxtarzadə) tapşırılsın ki, 1 ay müddətində "İcbari tibbi sığorta fondunun vəsaiti hesabına tibbi xidmətlərin göstərilməsi üçün göndəriş vərəqələrinin verilməsi Qaydası"na edilmiş dəyişikliklər barədə məlumatı Azərbaycan Tibb Universitetinin tədris-terapevtik klinikasına, Azərbaycan Tibb Universitetinin tədris-cərrahiyə klinikasına və "Bakı Sağlamlıq Mərkəzi" publik hüquqi şəxsinə müqavilədə nəzərdə tutulmuş qaydada təqdim etsin.

4. Marketinq və ictimaiyyətlə əlaqələr departamentinə (Aynurə Əhmədova) tapşırılsın ki, bu Qərarı Agentliyin rəsmi internet saytında yerləşdirməsini təmin etsin.

5. Bu Qərarın icrasına ümumi nəzarət İdarə Heyəti sədrinin müavini Nigar Bayramovaya həvalə edilsin.

**İdarə Heyətinin sədri** ________________ **Zaur Əliyev**

**M.Y.**